# “ZƏFƏRƏ APARAN İDEYA”

**adlı layihə müsabiqəsinin**

# ƏSASNAMƏSİ

**Lənkəran – 2022**

## 1. Ümumi müddəalar

**1.1** “Zəfərə aparan ideya” adlı layihə müsabiqəsi (bundan sonra - müsabiqə) Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi (bundan sonra – Dövlət Komitəsi) tərəfindən keçirilir.

**1.2** Bu Əsasnamə müsabiqənin məqsədlərini, şərtlərini, mərhələlərini və iştirakçıların mükafatlandırılması qaydalarını müəyyən edir.

## 2. Müsabiqənin məqsədi

**2.1** Uşaqların şəxsiyyət kimi formalaşması, maraqlarına toxunan məsələlərdə onların iştirakının təmin edilməsi;

**2.2** Uşaqların intellektual inkişafının stimullaşdırılması, onlarda sərbəst düşünmə və problem həlletmə qabliyyətinin inkişaf etdirilməsi;

**2.3** İstedadlı uşaqların cəmiyyətə təqdim olunması.

## 3. Müsabiqənin şərtləri

**3.1** Müsabiqədə Astara, Cəlilabad, Lerik, Masallı, Yardımlı və Lənkəran rayonları üzrə 14-18 yaş kateqoriyalı uşaqlar öz layihələri ilə iştirak edir;

**3.2** İçtirakçılar uşaq inkişafı və hüquqlarının müdafiəsi ilə bağlı hazırladıqları layihəni 30 noyabr 2022-ci il tarixədək Dövlət Komitəsinin rəsmi səhifəsində yerləşdirilmiş link vasitəsilə elektron müraciət formasına yükləyərək göndərir;

**3.3** Müsabiqədə uşaq hüquqlarının müdafiəsi ilə bağlı aşağıda qeyd olunmuş istiqamətlər üzrə hazırlanmış layihələr təqdim edilə bilər:

- uşaqların inkişafı;
- erkən nikahların qarşısının alınması;
- uşaq əməyinin istismarı ilə mübarizə;
- uşaqların zorakılıqdan və bullinqdən müdafiəsi;
- uşaqların zərərli informasiyadan mühafizəsi;
- təhsildən yayınma hallarının qarşısının alınması;
- küçə həyatına məruz qalmış uşaqların reabilitasiyası;

- sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyası;

**3.4** Layihələr Microsoft Power Point proqramında hazırlanmalı və 3 dəqiqədən artıq olmamalıdır.

**3.5** Onlayn təqdim olunmuş layihələr içərisindən 10 (on) yaradıcı təqdimat seçilir və mükafatlandırılması üçün təqdim olunur.

**3.6** Layihələr aşağıdakı meyarlar üzrə qiymətləndirilir:

- mövzu üzrə məsələnin qoyuluşu;
- məsələnin həlli istiqamətində irəli sürülən ideya;
- layihənin əsaslandırılması;
- layihənin tərtibatı;
- kreativlik.

## 4. İştirakçıların mükafatlandırılması qaydaları

**4.1.** 10 nəfər uşağa planşet, kubok və diplomlar hədiyyə edilir.